AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Mülkiyyətinizdə olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edirsiniz?

# Ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli ailə üzvləri sırasına daxilsiniz?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən....

**Məcburi dövlət sosial sığorta haqlarının uçotu barədə hesabatı** və ya hesabat dövründə fəaliyyət göstərmədiyiniz halda fəaliyyətinizin olmaması barədə **arayışı** əsas olmadan müəyyən edilən müddətdə vergi orqanlarına **təqdim etmədiyiniz halda**, Sizi minimum aylıq əməkhaqqının **təqvim ili** ərzində belə hallara

- **birinci dəfə** yol verdikdə **3 faizi**,
- **iki və daha çox dəfə** yol verdikdə **6 faizi** miqdarında maliyyə sanksiyasının tətbiqinə məruz qalmaq riski gözləyir.

Xatırladırıq ki, qeyd edilən maliyyə sanksiyasının tətbiqinə 1 yanvar 2020-ci il tarixdən başlanacaqdır.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmısınız, lakin vergi orqanlarına hesabat və digər məlumatları qanunvericiliklə müəyyən olunmuş qaydada təqdim etmirsiniz?

### O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, Sizi aşağıdakı maliyyə sanksiyalarına məruz qalmaq riski gözləyir:

- **Vergi hesabatlarının** (auditor tərəfindən yoxlanılması nəzərdə tutulduğu hallarda isə auditor rəyi əlavə edilməklə), o cümlədən **məcburi dövlət sosial sığortası və işsizlikdən sığorta üzrə hesabatların**, vergi tutulan əməliyyat olmadığı halda isə vergi hesabatı əvəzinə **"Vergi öhdəliyinin yaranmaması barədə Arayış"**ın əsas **olmadan müəyyən edilmiş müddətdə təqdim olunmamasına** görə **40 manat** məbləğində;
- **Sənədlərin** (o cümlədən elektron formatda məlumatların) müəyyən edilmiş müddətlərdə vergi orqanına **təqdim edilməməsinə** və ya bilərəkdən **təhrif olunmaqla təqdim edilməsinə**, o cümlədən vergi nəzarətinin həyata keçirilməsi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə bağlı **zəruri olan sənədlərin və ya onların lazımi qaydada təsdiq edilmiş surətlərinin** vergi orqanının müraciətinə əsasən **10 iş günü müddətində təqdim edilməməsinə**, habelə **sənədlərin və ya məlumatların** tam oxunaqlı şəkildə **5 ildən az olmamaqla** qanunla müəyyən edilmiş müddətdə üzrlü səbəb olmadan **saxlanılmamasına görə 1.000 manat məbləğində (qeyd olunan maliyyə sanksiyası 2019-cu il yanvarın 1-dən 1 il müddətində belə hala birinci dəfə yol verildikdə vergi orqanı tərəfindən rəsmi (yazılı) xəbərdarlıq edildikdən sonra həyata keçirilən vergi nəzarəti tədbirləri zamanı tətbiq olunur)**.

Vergi qanunvericiliyinin tələbləri ilə bağlı əlavə məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.